## *PEDAQOJİ KADR HAZIRLIĞI*

# MÜƏLLİM HAZIRLIĞI SİSTEMİNDƏ TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ PROBLEMİ

**Xəzəngül Babayeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialı*
E-mail: xezengul68@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli

***Açar sözlər**: müəllim hazırlığı, müəllim hazırlığı sistemi, təhsilin keyfiyyəti, təhsilin keyfiyyətinin yüksəldilməsi, şüurluluq və fəallıq prinsipi*

***Ключевые слова**: подготовка учителя, система подготовка учителя, качество образования, повышение качества образования, принцип сознательности и активности*

***Keywords**: teacher training, teacher training system, quality of education, improving the quality of education, the principle of consciousness and activity*

İnsan cəmiyyətinin çoxəsrlik tarixi sübuta yetirmişdir ki, təhsil sistemi və onun məzmunu ölkənin gələcəyinə xidmət göstərir. Hələ vaxtilə Aristotel bu xüsusda yazırdı: "Qanunverənlər gənclərin tərbiyəsinə xüsusi diqqətlə yanaşmalıdırlar, çünki hansı dövlətlərdə bu problemlər diqqət mərkəzində deyil, həmin ölkədə dövlət quruluşu ziyanlarla üzləşir. Aydındır ki, dövlət quruluşu formasından asılı olmayaraq, tərbiyənin forma və məzmununa möhtacdır".

Alimlərin tarixən fəlsəfi-psixoloji yönümdə yazmış olduqları əsərlərdə təlim-tərbiyə prosesinin gələcəyə istiqamətlənməsi haqqında maraqlı fikirlər vardır.

Ümummilli liderimiz Heydər Əliyev 2001-ci ilin sentyabr ayının 1-də bilik günü və yeni dərs ilinin başlanması münasibətilə Səbail rayonundakı 6 nömrəli məktəbdəki nitqində demişdir: "Azərbaycanın təhsil sistemi artıq tamam nizamlanıbdır. Təhsil sahəsində bizim son illər apardığımız islahatlar Azərbaycan məktəbinin, təhsilinin keyfiyyətini artırır və məktəblərdə, universitetlərdə müasir tələblərə uyğun təhsil verilir. Bunlar hamısı Azərbaycan xalqının sağlam, bilikli, yüksək ixtisasa malik olan gələcək nəsillərini hazırlayır. Xalqımızın elmi potensialı, bütün sahələrdə yüksək mütəxəssisləri ilə təmin olunmaq potensialı get-gedə artır. Bu da bizim müstəqillik dövründə əldə etdiyimiz əsas nailiyyətlərdən biridir".

Hazırda təhsil sistemi cəmiyyətin sosial-iqtisadi inkişafına hissediləcək dərəcədə təsir edir. Odur ki, on birinci yüzillikdə bəşəriyyətin qarşısında dayanan vəzifələrdən söz açılarkən, ilk növbədə təhsilin inkişaf istiqamətlərini müəyyənləşdirməyə çalışırlar.

İctimai həyatın bütün sahələrinə nüfuz edən dərin inteqrasiya prosesi təhsil sahəsində də gedir. Bu inteqrasiya müxtəlif ölkələrin təhsil sistemlərinin yaxınlaşmasına və vahid ümumi təhsil məkanının formalaşmasına kömək göstərir.

Ölkəmizdə təhsilin inkişaf perspektivləri hamını maraqlandırır. Onun taleyi respublikamızın Prezidentindən tutmuş sıravi müəllimə və təhsil işçisinə kimi hamını narahat edir. Təhsilin səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi qarşıda duran təxirəsalınmaz vəzifələrdəndir.

Son vaxtlar təhsil analitikləri digər sözlərlə müqayisədə "keyfiyyət" sözünə daha çox diqqət yetirirlər. Bu, səbəbsiz deyildir. Keyfiyyət təhsil müəssisələrinin əsas dəyərlərinin və təhsil ideallarının mühafizə olunub saxlanmasını nəzərdə tutur. Buraya daxildir: həqiqətin müstəqil axtarışı və biliklərin təmənnasız olaraq genişləndirilməsi.

Təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə bir çox müxtəlif tədbirlər görülür: Avropada təhsilin keyfiyyətinin akademik qiymətləndirilməsi üzrə komissiya yaradılıb, müxtəlif ölkələrdə, o cümlədən respublikamızda bu məsə-

lələrə həsr olunmuş beynəlxalq elmi konfrans və simpoziumlar keçirilir.

Dünya təcrübəsi əsas götürülməklə və təhsil sistemimizdə vaxtilə mövcud olmuş və hazırda mövcud olan və təcrübədə özünü doğrultmuş iş üslubundan istifadə edərək, onun məzmunu təkmilləşdirilir, təhsilin keyfiyyətinin idarə edilməsinə xüsusi diqqət yetirilir, təlim prosesi optimallaşdırılır, pedaqoji kadr hazırlığı yaxşılaşdırılır.

Lakin etiraf etmək lazımdır ki, bütün bunlara baxmayaraq, təhsilin keyfiyyəti konsepsiyası hələ ki yetərincə təşəkkül tapmamışdır: yanaşmalar müəyyənləşdirilir, keyfiyyətin göstəriciləri, cəhətləri formalaşdırılır, meyarlarına aydınlıq gətirilir. Odur ki, hələ təhsil sistemində yeniləşmələrin aparılmasına, bəzi çatışmazlıqların aradam qaldırılmasına ehtiyac vardır. Bəzi təhsil ocaqları, o cümlədən ümumi təhsil müəssisələri məzunlara dövlət təhsil standartlarına uyğun məcburi minimum bilikləri qazandırdıqlarına dair zəmanət verməkdə bir sıra hallarda çətinlik çəkirlər. Deməli, məktəbin inkişafı prosesləri diqqətlə araşdırılmalı, təhsildə keyfiyyət, ona nail olma, məqsədin proqnozlaşdırılması, nəticə və onun müəyyənləşdirilməsinin elmi əsasları diqqətlə və düzgün müəyyənləşdirilməlidir.

Təlimin keyfiyyəti, başqa sözlə hər bir dərsin, öyrənilən hər bir mövzunun, materialın keyfiyyəti diqqət mərkəzində dayanmalı, sinif otağı müasir tələblərə cavab verən avadanlıqlarla təchiz olunmalı və dərsə hazır olmalı, müəllim nəzəri və metodik baxımdan öz hazırlığını nümayiş etdirməyi bacarmalı, şagirdlərin idrak fəallıqları, müstəqillikləri təmin olunmalı, təşəbbüskarlıqları müdafiə edilməli, təhsilalanların biliklərinin və həyati bacarıqlarının qiymətləndirilməsi zamanı mexaniki əzbərçilik deyil, tədris materialının şüurlu öyrənilməsinə istinad, dərsdə şagirdlərin fəallığı əsas götürülməlidir. Təhsil sistemində keyfiyyətin idarə olunması mərkəzi yer tutmalıdır. Bu, bir həqiqətdir ki, təhsilin keyfiyyəti - idarəetmə obyektidir.

Təhsildə keyfiyyət məsələsi hər bir zaman aktual olmuşdur. Başqa cür, sadəcə, mümkün deyildir. Digər sahələrdə olduğu kimi, təhsil müəssisəsindən də həmişə keyfiyyət tələb edilir. Keyfiyyət məsələsi son vaxtlar daha çox müzakirə obyektinə çevrilmişdir.

Məlum olduğu kimi, insan inkişafı indeksi üç göstəriciyə əsasən müəyyən edilir: 1) təhsilin səviyyəsi; 2) əhalinin adambaşına düşən gəlir və 3) əhalinin orta yaş səviyyəsi.

Təhsil indeksi daha böyük əhəmiyyət daşıyır. Son vaxtlar respublika məktəblərində ciddi dəyişikliklər (məktəb tikintisi, təmiri, avadanlıqla, kompüterlə təminatı və s.) gedir. Tədris prosesi, müəllim-şagird-valideyn münasibətləri isə, nədənsə yüksək səviyyədə qurulmur. Bəzi müəllimlər yeni təfəkkürə lazımınca yiyələnməmişlər.

Dövlətin, cəmiyyətin, şagird və tələbələrin, o cümlədən kiçik yaşlı məktəblilərin təhsil sisteminə sosial tələbi keyfiyyətli təhsil hesab olunur. Təhsil sistemində gedən islahatlarda məqsəd onun keyfiyyətinin yüksəldilməsini təmin etməkdən ibarətdir.

Təhsilin keyfiyyəti dedikdə nə başa düşülməlidir? O, necə müəyyən edilir? Təhsilin keyfiyyətini necə idarə etmək mümkündür?

T. Hacıyeva həmin suallara aşağıdakı şəkildə cavab verir: "Ümumiyyətlə, istənilən sahədə keyfiyyət anlayışı müəyyən olunmuş standartlara uyğunluğu ifadə edir. Obyektin və ya sistemin halını xarakterizə edən parametrlər standarta nə qədər yaxındırsa, keyfiyyət də bir o qədər yüksək hesab olunur. Təhsildə də belədir. Təhsilin keyfiyyəti əldə olunan nəticələrin əvvəlcədən müəyyən olunmuş meyarlara (standartlara) nisbəti ilə müəyyən olunur. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nəticələridir və bu nəticələrin obyektiv qiymətləndirilməsi keyfiyyəti üzə çıxaran etibarlı mənbə hesab olunur" (1).

Təhsili o zaman keyfiyyətli hesab etmək olar ki, nəinki şagirdlər, həm də təhsil prosesinin üzvləri olan müəllimlər də müəyyən nailiyyətlərə malik olsunlar. Başlıca məqsəd şagirdləri, o cümlədən kiçik yaşlı məktəbliləri təkcə biliklərə yiyələndirməkdən deyil, əmək vərdişləri, yaşamaq, dəyişən dünyaya uyğunlaşmaq bacarıqlarının formalaşdırılmasından ibarətdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi "Orta ümumtəhsil məktəbinin Nümunəvi Əsasnaməsi"ndə məktəbin vəzifəsinə həm də aşağıdakılar daxil edilmişdir: "Ümumtəhsil məktəbinin əsas vəzifəsi fərdin təbii imkanlarını inkişaf etdirmək, ona elmin əsaslarını öyrətmək, fiziki, əqli, intellektual imkanlarını, meyil, maraq və idrak qabiliyyətlərini nəzərə alaraq, onun şəxsiyyətini formalaşdırmaq, həyatda və cə-

miyyətdə səmərəli fəaliyyətə hazırlanmasına, müstəqil, yaradıcı düşünən, ümumi mədəniyyətə malik milli mənəviyyatlı şəxsiyyətin yetişdirilməsinə xidmət etmək, şüurlu olaraq peşə seçməyə hazırlamaq, Azərbaycanın inkişafı naminə fədakarcasına çalışan vətəndaş tərbiyə etməkdən ibarətdir" (2).

Dərsin, tədris məşğələlərinin keyfiyyətinin yüksəldilməsində təlimin prinsiplərinin, o cümlədən elmilik, sistemlilik, əyanilik və s. prinsiplərin rolu böyükdür. Bu prinsiplərin sırasında şüurluluq və fəallıq prinsipi özünəməxsus əhəmiyyət daşıyır.

Təlimin şüurluluq və fəallıq prinsipi müəyyən tarixə malikdir. Bu prinsip pedaqogika tarixində doğmatik təlimin əleyhinə olaraq meydana gəlmişdir. Bu xüsusda prof. M.Ə. Muradxanov yazırdı: "Doğmatik təlim biliyi ehkam kimi, sübutsuz və dəlilsiz qəbul etmək, mənasını bilmədən əzbərləmək deməkdir. Belə təlim orta əsrlər üçün səciyyəvidir. Orta əsrlər məktəbində şagirdlər aldıqları biliklərin doğruluğuna sübutsuz, dəlilsiz, «müqəddəs kitab»ın, müəllimin nüfuzu əsasında inanmalı idilər. Bu, şagirdləri passivliyə, əzbərçiliyə sövq edir, onların təfəkkür fəaliyyətini heçə endirir" (3, 110).

Təlimin son dərəcə mühüm məqsədi kiçik yaşlı məktəblilərdə ətraf aləmə düzgün münasibətin yaradılması və müvafiq inam və əqidənin formalaşdırılmasıdır. Bu, bir həqiqətdir ki, şüurlu mənimsənilən biliklər insanın inamına və əqidəsinə çevrilir. Lakin təlim prosesində təhsilalanlara, o cümlədən ibtidai sinif şagirdlərinə yalnız biliklər verilir, inam və əqidəyə isə, hər bir şəxs özü müstəqil olaraq, yəni şüurlu yiyələnir. Şagirdlər tərəfindən materialın mənimsənilməsində şüurluluq müəllimin fəaliyyətindən çox asılıdır. O, dərsdə məktəblilərin diqqəti üzərində daimi müşahidələr aparır, problem situasiyanın qoyuluşunu stimullaşdırır, lakin aktual inkişaf səviyyəsində olmayan suallar təhsilalanların diqqətini fəallaşdıra bilmir.

Şüurluluq və fəallıq prinsipi aşağıdakıları nəzərdə tutur:

1) şagirdlərin təlimə şüurlu münasibətini;

2) biliklərə yiyələnməkdə fəallığın yaranması. Bu da öz növbəsində məktəblilər tərəfindən öyrənilən cisim, əşya və hadisələrin dərindən başa düşülməsini təmin edir;

3) nəzəri biliklərin təcrübədə tətbiqi üzrə bacarıqların formalaşdırılması.

4) şagirdlərin öz təhsilləri qarşısında duran məqsədi bilmələri, onları yerinə yetirməyə cəhd. Buradan da təlimə şüurlu və fəal münasibət yaranır;

5) məqsədin həyata keçirilməsinin yol və vasitələrini bilmək;

6) elmin fakt və qanunauyğunluqlarını dərindən anlamaq, tədris materialının şagirdlərin şüurunda öz ifadəsini tapmasına nail olmaq. Bunsuz fikri, düşüncəni, baxışları, əqidəni, dünyagörüşü inkişaf etdirmək çətindir;

7) biliklərin fəal mənimsənilməsi və onların yaradıcı tətbiqi.

Bütün bunlar göstərir ki, müxtəlif vasitələrdən istifadə etməklə səriştəli müəllim hazırlığına nail olmaq mümkündür.

**Problemin aktuallığı.** Müəllim hazırlığı sistemində təhsilin keyfiyyətinin yüksəldilməsi problemi.

**Problemin yeniliyi.** Hazırda səriştəli müəllim hazırlığı son dərəcə əhəmiyyətli bir məsələdir. Bu, bir həqiqətdir ki, pedaqoji ustalığa, nəzəri və metodik hazırlığa malik müəllimlər təhsilin keyfiyyətinin yüksəldilməsinə, geniş dünyagörüşünə, mədəniyyətə, nümunəvi davranışa malik şəxsiyyətlər yetişdirə bilər.

**Problemin praktik əhəmiyyəti.** Ali təhsil müəssisələrinin pedaqoji kollektivləri müəllim hazırlığı sistemində bu məqalədən faydalana bilərlər.

## ƏDƏBİYYAT


1. Hacıyeva T. Monitorinq, qiymətləndirmə və təhsilin keyfiyyəti http://www.edu.gov.az/upload/file/monitorunqveqiymetlendirme/cisishlar/monitorinq-ve qiymetlendirme-tehsilin-keyfiyyeti.pdf

2. Azərbaycan Respublikası orta ümumtəhsil məktəblərinin nümunəvi Əsasnaməsi. 12 mart 1994-cü il, Nazirlər Kabinetinin 109 saylı qərarı

3. Muradxanov M., Həşimov Ə., Vəlixanlı İ., Əfəndiyev T. Pedaqogika: Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Azərtədrisnəşr, 1964.

**Х. Бабаева**

**ПРОБЛЕМА ПОВЫШЕНИЯ КАЧЕСТВА ОБРАЗОВАНИЯ В СИСТЕМЕ ПОДГОТОВКИ УЧИТЕЛЕЙ**

***РЕЗЮМЕ***

В настоящее время подготовка учителей - очень важная задача. Это факт, что учителя обладающие педагогическим мастерством, теоретической и методологической подготовкой способны улучшить качество образования и воспитать личность обладающей широким кругозором, культурой, образцовым поведением. В статье основное внимание уделяется проблеме повышения качества образования и отмечается роль принципов активности и сознательности в этой области. Педагогические коллективы высших учебных заведений могут извлечь пользу из этой статьи в системе подготовки учителей.

**X. Babayeva**

**THE PROBLEM OF IMPROVING THE QUALITY OF EDUCATION IN THE SYSTEM OF TRAINING OF TEACHERS**

***SUMMARY***

Currently, the training of teachers is a very important task. It is a fact that teachers possessing pedagogical skill, theoretical and methodological training are able to improve the quality of education and educate a person with a broad outlook, culture, exemplary behavior. The article focuses on the problem of improving the quality of education and notes the role of the principles of activity and consciousness in this area. Pedagogical collectives of higher educational institutions can benefit from this article in the system of teacher training.

**Redaksiyaya daxil olub:** 08.02.2018